Kaspi.-2017.-7-9 yanvar.-S.15.



**Susən Nəvadeye Rəzi**

*1963-cü ildə Təbriz şəhərində ziyalı ailəsində anadan olub. 1990-cı ildən şeirləri, nağılları mətbuatda çap olunur. İndiyə kimi 3 kitab- "Şəlalələr şələsi" (şeirlər), "Arzuların yeni Gülşən bağı" (nəsr), "Ənnəmnən mən" (folklor) nəşr edilib.*

***Təqdim etdi:***
***İlham Qəhrəman***

## BİZİM ÜRƏK

Bizim ürək
Alma ağacları gül açanda, açar,
Ətləsilər[1] Şahgölüdə
ətir saçanda açar.
Bizim ürək ceyran kimidir, -
Dağda-daşda ovçu əlindən
ürkək-ürkək qaçanda açar.
Quş kimidir bizdə ürək
Göy məscidin təvafına[2] gedər,
Ərkin başına
dolanıb uçanda açar.
Bizim ürək şairdi, şair!
Təbrizi şərbət kimi
Qurtum-qurtum içəndə açar...

*1-tənbəkigülü, petuniya*
*2-Həcc zamanı Kəbənin ətrafına dolanmağa deyilir*

## ƏBƏDİYYƏTDƏ VƏTƏNİN ADI NƏDİR

Əbədiyyət nə cür bir şeydir -
ordadamı qürbət var?
Ordadamı ayırırlar adamları -
öz özündən?
Bir-birlərindən,
və kimliklərindən?

Əbədiyyət nə rəngdədir -
Göy rəngi varmı?
Qırmızısı necə,
və yaşılı?
Mənə bir şal gətir əbədiyyətdən
yel qaçırtsa, burax qaçırtsın,
Mən qara rəngi heç sevmirəm axı.

Ordadamı sevəni incidirlər,
qan uddururlar vurğunlara?
Əbədiyyətdə vətənin adı nədir,
Sevmək olarmı qorxmadan vətəni?
Özünü,
dilini?
Diləyini mənimsəmək olarmı hədə qorxusuz?
"Sevirəm" demək olarmı sevgilinə,
qara yaxılmadan adama?
Urmu gölü necə -
Urmusunu gəlin-gəlin çürütmürlərmi,
görəsən?
Mən əbədiyyətdə adam doğmayacam
Böyüyüb alagöz ceyranları ovlayar
birdən...

## VER XƏYALININ QANADINI

Ver xəyalının qanadını
xəyalımın qanadına
Quşlaşaq.
Quşlaşıb, hər şeyə rəğmən
Zamansız Təbrizin göylərində uçaq -
Eynalıdan vuraq Şahgölüdən çıxaq,
Gülüstan bağının ağaclarında oturaq,
Ərkə baxaq.
Göy məscidə qaş göz oynadaq,
Vağzaldan uçaq qonaq Saman meydanına.
Dəvəçi bazarçasına yetişəndə
yenə adamlaşaq,
Üstü örtülü bazarları gəzək -
Küçəbəküçə
Dalanbadalan...
İki qapılılar,
Sandıqçıbazar,
Pambıqçıbazar,
Zərgərəbazar,
Misgərəbazar,
Yunçubazar,
İpçibazar,
Fərşçibazar,
Dəlləzənxana,
Başmaqçıbazar...
və o pinti cızbızçıda
Cızbız yeyib ayran içək, dincimizi alaq.
və sən mənə şeirləşdirincə bu gəzintini
Mən başdan ayağa qulaq olum sənin üçün.